**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNDƏ GƏNCƏ ŞƏHƏRİ TURİZM SAHƏSİNDƏ DAYAQ MƏRKƏZİ KİMİ

İxtisas: 6405.01 – Şəhərsalma, yaşayış məntəqələrinin planlaşdırılması və landşaft memarlığı

Elm sahəsi: Memarlıq

İddiaçı: **Maya Əli qızı Cəfərova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı–2026**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: YUNESKO və BMT yanında Beynəlxalq Akademiyanın həqiqi üzvü, Azərbaycan Respublikasının əməkdar memarı, professor
**Elbay Ənvər oğlu Qasımzadə**

Rəsmi opponentlər: memarlıq doktoru, professor
**Aybəniz Əşrəf qızı Həsənova**

memarlıq üzrə fəlsəfə doktoru
**Fərhad Ədhəm oğlu Molla-Zadə**

memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Zahid Ənvər oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.29 Dissertasiya şurası.

Dissertasiya şurasının
sədri: memarlıq doktoru, professor
______________ **Gülçöhrə Hüseyn qızı Məmmədova**

Dissertasiya şurasının
elmi katibi: memarlıq üzrə fəlsəfə doktoru, dosent
______________ **Məlahət Tapdıq qızı Eynullayeva**

Elmi seminarın
sədri: memarlıq doktoru, professor
______________ **Şəhla Şex Əli qızı Qəhrəmanova**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Bu gün turizm iqtisadiyyatın ən perspektiv sahələrindən biri sayılır. Dünyada ölkələrin bir çoxu turizm siyasətinin formalaşmasına və inkişafına xüsusi diqqət yetirir, çünki bir sıra göstəricilərə görə turizm, iqtisadi fəallığın digər sahələrini geridə qoyur. Azərbaycanda bu istiqamətdə bir sıra tədbirlər görülür, fərmanlar, dövlət proqramları və qanunlar imzalanır və həyata keçirilir.

Azərbaycanda turist axınının istiqaməti getdikcə daha çox bölgələri əhatə edir. Turizmin regional iqtisadiyyata müsbət təsiri hamıya məlumdur, lakin Azərbaycanın bütün regionları turistləri cəlb etmək və regional iqtisadiyyatı yaxşılaşdırmaq üçün öz turizm resurslarından tam istifadə edə bilmirlər. Belə ərazilərdən biri də müxtəlif coğrafi şəraiti və rəngarəng landşaftları əhatə edən, zəngin tarix, mədəniyyət və təbiət abidələrinə malik olan, qərb nəqliyyat yolu üzərində yerləşən və fərqli turizm növləri potensialına malik olan Gəncə-Qazax məskunlaşma sistemi ərazisidir. Nəzərə alsaq ki, Gəncə şəhəri bu məskunlaşma sisteminin şəhər-nüvəsidir, həm zəngin memarlıq irsinə malikdir, həm də Azərbaycanın bütün Qərb regionu üçün inzibati, maliyyə, sənaye, elm və təhsil mərkəzidir, onun Gəncə-Qazax məskunlaşma sistemində turizm sahəsində dayaq mərkəzi kimi rolunun müəyyənləşdirilməsinə ehtiyac duyur. Bu baxımdan dissertasiyanın mövzusu olduqca aktualdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi**. Azərbaycan şəhərinin və ayrı-ayrı regionlarının formalaşması və inkişafında Azərbaycan tədqiqatçılarının əsərlərinə, o cümlədən E.Ə.Qasımzadə, D.A.Axundov, Ş.Fətullayev, R.M.Əfəndizadə, G.H.Məmmədova, F.M.Hüseynov, N.H.Nağıyev, A.Ə.Həsənova, R.H.Əbdülrəhimov, N.C.Abdullayeva, X.Ə.Cəfərov, F.A.Mollazadə, Y.Ə.Hacıyeva, R.R.Ağazadə, N.O.Yusifli, Ş.Ş.Qəhrəmanova, Z.Ə.Məmmədov, Ə.Z.Vəkilova və s. kimi memarlıq tarixi və şəhərsalma üzrə alimlərin elmi əsərlərinə istinad edilmişdir. Həmçinin Z.N.Yargina, G.A.Potayev, İ.A.İodo, A.V.Veliçkina, N.N.Klimov, A.D.Çudnovsiy, Y.İ.Usmanov, K.Linç kimi şəhərsalma üzrə Rusiya və digər xarici tədqiqatçıların elmi işlərinə də istinad edilmişdir.

**Dissertasiyanın məqsədi**. Gəncə-Qazax məskunlaşma

sistemində Gəncə şəhərinin turizm sahəsində dayaq mərkəzi kimi rolunun müəyyən edilməsidir. Gəncə şəhəri Gəncə-Qazax məskunlaşma sisteminin nüvəsidir, zəngin memarlıq irsinə malikdir, Azərbaycanın bütün Qərb regionu üçün inzibati, maliyyə, sənaye, elm və təhsil, ticarət mərkəzidir. Gəncə-Qazax məskunlaşma sisteminin böyük turizm potensialına malik olması burada turizm fəaliyyətinin təşkili üçün Gəncənin dayaq mərkəzi və turizm idarəetmə mərkəzi kimi rolunun müəyyən edilməsini tələb edir.

**Tədqiqatın məsələləri.** Gəncə-Qazax məskunlaşma sisteminin inkişafında ümumi şəhərsalma şərtlərinin müəyyən edilməsi, məskunlaşma sistemində turizm potensıalının qiymətləndirilməsi və turizmin prioritet inkişaf istiqamətlərinin Gəncə-Qazax məskunlaşma sisteminin inkişafında vacib strateji element kimi rolunun aydınlaşdırılması tədqiqat işinin vəzifələridir.

**Tədqiqatın obyekti** - Gəncə-Qazax məskunlaşma sisteminin ərazisi - Gəncə-Daşkəsən (Daşkəsən, Goranboy, Göygöl, Samux rayonları, Gəncə və Naftalan şəhərləri) və Qazax-Tovuz (Qazax, Tovuz, Ağstafa, Gədəbəy və Şəmkir rayonları) iqtisadi rayonlarının şəhər və qəsəbələri daxil olmaqla.

**Tədqiqatın predmeti** – Gəncə-Qazax məskunlaşma sistemində Gəncə şəhərinin turizm sahəsində dayaq mərkəzi kimi rolunun müəyyən edilməsi.

**Tədqiqat metodları.** Gəncə-Qazax məskunlaşma sisteminə daxil olan ərazilərin, şəhər və qəsəbələr üzrə nəzəri işlərin, layihə, arxiv və statistik materialların təhlilinin, tədqiq olunan obyektlərin fotoçəkilişi ilə natura tədqiqatlarının aparılmasını, toplanan materialların ümumiləşdirilməsini daxil edən sistem yanaşmasına əsaslanır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Gəncə-Qazax məskunlaşma sistemində yaşayış yerlərinin tarixi inkişafının təhlili;
– Məskunlaşma sisteminin təbii-rekreasiya resursları;
– Gəncə-Qazax məskunlaşma sisteminin təbii-rekreasiya resurslarının, sosial-iqtisadi və demoqrafik şərtlərin qiymətləndirilməsi;
– Tədqiq olunan ərazidə turizm amillərinin təhlili;

- Gəncə-Qazax məsunlaşma sisteminin urbanizasiya karkasının struktur analizi;
- Bölgədə turizm infrastrukturunun müasir vəziyyətinin qiymətləndirilməsi;
- Regionda turizmin inkişafının prioritet istiqamətlərinin təyin olunması;
- Gəncə şəhərinin Gəncə-Qazax məskunlaşma sistemində turizm sahəsinin inkişafında rolunun müəyyən edilməsi
- Gəncə-Qazax məskunlaşma sisteminin turizm-rekreasiya kompleksinin inkişaf sferasında fəaliyyətinin hazırlanması.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə Gəncə-Qazax məskunlaşma sistemi ərazisində turizmin yeni prioritet sahələri və regional turizm klasterləri təyin edilmiş və eyni zamanda Gəncə şəhərinin turizm sahəsində dayaq mərkəzi kimi rolu müəyyən edilmişdir**.**

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi Gəncə-Qazax məskunlaşma sisteminə daxil olan şəhər və qəsəbələrin baş planlarının və müfəssəl planlaşdırma layihələrində, eləcə də Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarının rayon planlaşdırılması sxemlərinin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işinin əsas müddəaları “Dizaynın müasir problemləri” elmi-praktiki konfransında (Bakı, 2019), “Böyük şəhərlər mühitində nəqliyyat infrastrukturunun formalaşması və inkişaf problemləri” konfransında (Bakı, 2019), Ə.Qasımzadənin 100 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfransda (Bakı, 2012), “Müasir şəhərsalmada novatorluq və ənənələr” mövzusunda elmi-praktiki konfransda (Bakı, 2022), Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2021), “İnşaatın müasir problemləri” Beynəlxalq elmi konfransında (2023), “Azərbaycan Respublikasının müasir idman qurğularının memarlıq və inşaat problemləri” elmi-praktiki konfransda, İCETEA 2024 - “Memarlıq və inşaatda enerji və ətraf mühit texnologiyaları” beynəlxalq elmi konfransda (2024), məruzə edilmişdir. Dissertasiyanın əsas nəticələri Respublika daxilində və xaricdə dərc olunan elmi jurnallarda nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin

“Memarlıq layihələndirilməsi və şəhərsalma” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və illüstrasiyalardan (cədvəl və şəkillər) ibarətdir. Tədqiqat işinin ümumi məzmunu kompüter yığımının 143 səhifəsində (256.205 işarə), 27 illüstrasiya səhifəsində və əlavədə (1 cədvəl) öz əksini tapmışdır. Giriş – 6.058 işarə, I Fəsil –67.255 işarə, II Fəsil – 82.480 işarə, III Fəsil – 53.457 işarə, dissertasiyanın nəticə hissəsi – 11.019 işarə ilə müəyyən edilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

## I FƏSİL. GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN İNKİŞAFININ ÜMUMİ ŞƏHƏRSALMA ŞƏRTLƏRİ

### 1.1. Gəncə-Qazax məskunlaşma sistemində yaşayış yerlərinin tarixi inkişafı

Gəncə-Qazax məskunlaşma sisteminə Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarının şəhər və qəsəbələri daxildir. 1991-2021-ci illərdə bu ərazilər vahid Gəncə-Qazax iqtisadi rayonu kimi fəaliyyət göstərmiş, 12,48 min $km^2$ sahə ilə ölkə ərazisinin 14,4%-ni əhatə edərək sosial-iqtisadi potensialına görə respublikada ikinci yeri tutmuşdur.

Ərazi qədim yaşayış məskənləri ilə secilir: burada 9 dünya və 259 respublika əhəmiyyətli arxeoloji abidə və çoxsaylı memarlıq, bağ-park və monumental irs abidələri mövcuddur. Bu zənginlik məskunlaşma sisteminin tarixi-memarlıq potensialını müəyyən edən əsas göstəricilərdir.

Gəncə şəhəri Azərbaycanın ən qədim və strateji şəhərlərindən biridir. V əsrdə salındığı güman edilir və ticarət yolları üzərində yerləşməsi səbəbindən müharibə və fəlakətlərə baxmayaraq inkişafını davam etmişdir. XX əsrin əvvəllərindən ölkənin ikinci sənaye mərkəzinə çevrilmiş, müstəqillik dövründə isə sənaye, elm və təhsil sahələrində əsas şəhərlərdən biri kimi qalmaqdadır.

Şəmkir, Qazax, Gədəbəy, Göygöl, Ağstafa, Tovuz, Daşkəsən, Goranboy, Samux və Naftalan şəhərləri də qədim yaşayış izləri, qalalar, körpülər, dini və sənaye irsi ilə seçilir. Gədəbəy və Daşkəsəndə mədənçilik, Naftalanda müalicəvi neft kurortu, Göygöl və Şəmkirdə alman kolonistlərinin saldığı məskənlər bölgənin memarlıq inkişafına öz təsirini göstərmişdir.

Şəhərlərin plan quruluşları da müxtəlifdir: Gəncə sıx şərq tipli struktur, Gədəbəy və Daşkəsən isə dağ relyefinə uyğun mürəkkəb planlama ilə seçilir. Şəmkir, Göygöl, Tovuz, Ağstafa və Qazaxda XIX əsr alman koloniyalarının xətti və kompakt planlaşdırma prinsipləri üstünlük təşkil edr. Molokan kəndləri də özünəməxsus memarlıq xüsusiyyətlərinə malikdir.

## 1.2. Məskunlaşma sisteminin təbii-rekreasiya resursları.

Gəncə-Qazax məskunlaşma sisteminin turizm və rekreasiya potensialı bölgənin fiziki (geosiyasi mövqe, coğrafi-iqtisadi vəziyyət, geoloji quruluş, relyef, hidroqrafik şəbəkə, iqlim, balneoloji resurslar) və bioloji (flora, fauna və landşaft) xüsusiyyətləri ilə müəyyən olunur.

*Geosiyasi mövqeinə* görə ərazi yalnız Gürcüstanla sərhədlənir və siyasi risklərin azlığı turizmin inkişafı üçün əlverişli şərait yaradır. *Coğrafi-iqtisadi vəziyyət* də üstünlük təşkil edir: beynəlxalq avtomobil və dəmir yolu magistralları, eləcə də Gəncə hava limanı regiounu mühüm nəqliyyat qovşağına çevirir. Bununla belə, Kür çayının turizm və nəqliyyat potensialı yetərincə istifadə olunmur.

*Geoloji quruluş* baxımından məskunlaşma sistemi faydalı qazıntılarla zəngindir və dünya təcrübəsində olduğu kimi Daşkəsən və Gədəbəydəki köhnə şaxtaların turizm məqsədilə istifadəsi maraq doğurur. *Relyef* dörd zona - maili düzənlik, dağətəyi, orta və yüksək dağlıq sahələrdən ibarətdir ki, bu da dağ, ekoturizm və ekstremal turizm növləri üçün əlverişlidir.

*Hidroqrafik şəbəkəyə* Kür və digər çaylar (Gəncəçay, Ağstafaçay. Tovuzçay) daxildir. Su turizmi və idman növləri üçün Şəmkir, Samux, Ağstafa və Qazax rayonlarının potensialı yüksəkdir.

*İqlim*. Gəncə-Qazax məskunlaşma sisteminin iqlimi müxtəlifdir. İqlim müxtəlifliyi qış və dağ turizmi, su idmanları və müalicə-

sağlamlıq turizminin inkişafına imkan yaradır.

*Balneoloji resurslar* bölgənin mühüm üstünlüklərindəndir. Hacıkənd, Göygöl, Naftalan kimi kurort zonaları uzun illərdir fəaliyyət göstərir. Daşkəsəndə müəlicəvi su mənbələri mövcuddur. Dünyada yeganə olan Naftalan nefti regionun ən nadir resursudur, lakin infrastruktur tam inkişaf etmədiyindən potensial tam reallaşmamışmır.

*Flora, fauna müxtəlifliyi* Göygöl ekosistemi, Tuqay meşələri, Qarayazı və Göygöl qoruqları kimi təbii ərazilər turizm üçün yüksək dəyər kəsb edir və regionun landşaft müxtəlifliyini formalaşdırır.

## 1.3 Gəncə-Qazax məskunlaşma sisteminin sosial-iqtisadi və demoqrafik şərtləri

Gəncə-Qazax məskunlaşma sisteminin sosial-iqtisadi və demoqrafik şərtləri onun tarixi inkişafı, təbii resursları və əhalinin yerləşmə dinamikasl ilə müəyyən edilir. Gəncə bölgənin əsas sənaye və xidmət mərkəzi kimi çıxış edir, Qazax, Tovuz, Şəmkir və Samux isə aqrar ixtisaslaşma, sərhəd ticarəti və nəqliyyat funksiyaları ilə fərqlənir. Regional iqtisadi baza metallurgiya, maşınqayırma, ərzaq sənayesi, üzümçülük və heyvandarlıq kimi sahələrdən formalaşmış, infrastrukturun genişlənməsi məskunlaşmanın inteqrasiyasını gücləndirmişdir. Sovet dövrünün sənaye müəssisələri və Şəmkir su anbarı yaşayış məntəqələrinin böyüməsini və Gəncənin regional mərkəz kimi mövqeyini möhkəmləndirmişdir. Müstəqillik illərində iqtisadi dəyişikliklər, miqrasiya və şəhərətrafı məskunlaşma demoqrafik strukturun yenilənməsinə səbəb olmuşdur.

Əhali artımı rayonlar üzrə fərqlidir: Gəncədə sabit urbanizasiya, Qazax və Tovuzda miqrasiyası səbəbindən azalma, Şəmkirdə isə kənd təsərrüfatı hesabına artım müşahidə olunur. Əmək bazarı da bu bölgünü əks etdirir: Gəncədə sənaye və xidmət sahələri, rayonlarda isə aqrar məşğulluq üstünlük təşkil edir. Bakı-Tbilisi nəqliyyat dəhlizinin rolu artmış, onun üzərində yerləşən məntəqələr ticarət və logistika baxımından üstün mövqeyə yiyələnmişdir. İnfrastrukturun yenilənməsi, kənd yollarının yaxşılaşdırılması və xidmət obyektlərinin artması sosial rifahı yüksəltmişdir.

Təhsil və səhiyyə infrastrukturunun yenilənməsi, ekoloji tarazlığın qorunması və kənd təsərrüfatının rəqəmsallaşdırılması bölgənin dayanıqlı inkişaf istiqamətlərindəndir. Bu sosial-iatisadi tədbir, müalicə-sağlamlıq, kənd, etnik, ekskursiya və mədəni-tanışlıq turizminin geniş inkişaf potensialına şərait yaradır.

# II FƏSİL. GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNDƏ TURİZM POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Gəncə-Qazax məskunlaşma sistemində turizm amillərinin təhlili

Gəncə-Qazax məskunlaşma sistemində turizmin inkişafına təsir edən əsas amillər aşağıdakılardır:

***1)təbii-coğrafi amillər***. Ərazi Kiçik Qafqaz və Kür depressiyasının seysmik aktiv zonaları ilə əhatə olunur. Məskunkaşma sistemi torpaq eroziyasının müxtəlif növlərinə-su, külək və irriqasiya eroziyasına məruz qalır.

2***) mədəni-tarixi amillər***. Dövlət tərəfindən qorunan tarixi və mədəni obyektlər şəhər və kənd mühitinin planlaşdırılmasına, istirahət zonalarının və nəqliyyat infrastrukturunun formalaşmasına təsir edir.

3) ***maddi-texniki baza.*** Regionun turizm infrastrukturu – yerləşmə, qida, nəqliyyat və xidmət sahələri onun cəlbediciliyini müəyyənləşdirir. 2019-cu ildə 37 otel və otel tipli müəssisədə 5219 çarpayı mövcud idi (ölkə üzrə otaq fondunun 16,5%-i). Xarici nəqliyyat əlaqaləri nisbətən yaxşı olsa da, rayonlararası əlaqələrin zəifliyi turist axınını məhdudlaşdırır. Göygöl Milli Parkının turizm potensialı yüksəkdir, lakin xidmət və nəqliyyat təminatı kifayət qədər inkişaf etməmişdir.

4) ***maliyyə-iqtisadi amillər*** - Rayonlar üzrə gəlirlər səviyyəsinin fərqliliyi turizm obyektlərinin optimal yerləşdirilməsinə təsir göstərir və potensial turizm klasterlərinin formalaşmasını müəyyənləşdirir.

5) ***sosial-demoqrafik amillər***. Əhalinin 66,18%-i əmək qabiliyyətlidir (ölkə üzrə 67,93%). Bu göstərici turizm xidmətlərinin təşkili, işçi qüvvəsinin təminatı və məskunlaşma sisteminin planlaşdırılması baxımından əhəmiyyətlidir.

6) ***şəhərsalma və məkan amilləri*** - formalaşmış memarlıq quruluşu və rahat naviqasiya Gəncə, Şəmkir və Göyçay kimi tarixi mərkəzləri ekskursiya və mədəni turizm üçün cəlbedici edir.

7) ***informasiya amili*** – Gəncə-Qazax məskunlaşma sistemində turizmin informasiya mühitinin və marketinq strategiyalarının (internet, sosial media, rəqəmsal platformalar) inkişafını əhatə edir və regionun milli və beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin və tanınırlığının artmasına xidmət edir.

## 2.2. Məskunlaşma sisteminin urbanizasiya karkasının struktur analizi

Gəncə-Qazax məskunlaşma sistemi xətti-düyün planlaşdırma strukturuna malikdir. Şəhər əhalisinin və istehsal potensialının təxminən dörddə üç hissəsi mərkəzlərdə cəmlənmişdir. Məskunlaşma sisteminin baş mərkəzi Gəncə şəhəri, ikinci dərəcəli mərkəzləri isə Qazax və Şəmkirdir. Sistemə daxil olan "ikinci şəhərlər" sırasına Ağstafa, Daşkəsən, Gədəbəy, Tovuz və Göygöl daxildir. Rayonların dayaq mərkəzləri kimi Samux, Goranboy, Naftalan çıxış edir. Urbanizasiya oxu Bakı-Qazax magistral boyunca cənub istiqamətində uzanır.

Məskunlaşma sistemində13 şəhər, 9 rayon, 2 şəhərdaxili rayon, 46 qəsəbə, 283 kənd inzibati ərazi vahidi və 523 kənd yaşayış məntəqəsi var. Əhalinin 80%-i Kür çayı boyunca magistral yol üzərində cəmləşib. Məskunlaşmış 526,5 km$^2$ ərazidə əhali sıxlığı 2240 nəfər/km$^2$ təşkil edir ki, bu da region ərazisinin yalnız 4%-dir. Şimalda aqrar, cənubda aqrar-sənaye və sənaye funksiyaları üstünlük təşkil edir.

Təbii-ekoloji karkas xüsusi qorunan ərazilər və çay, dolayı oxlardan ibarətdir. Bölgədə Mingəçevir, Ağstafa və Şəmkir su anbarları mövcuddur. Gəncədə ali təhsil, məktəb və uşaq müəssisələri mövcuddur. Digər şəhərlərdə filiallar fəaliyyət göstərir. Sanatoriyalar əsasən Naftalan şəhərindədir.

İqtisadi baxımdan məskunlaşma sistemi əsasən təbii ehtiyatlara və kənd təsərrüfatına bağlıdır. Şəhərlərin funksional profilləri: dağ-mədən (Daşkəsən, Gəncə), sənaye (Goranboy, Şəmkir), aqrar-sənaye (Göygöl, Tovuz, Ağstafa), aqrar (Samux, Dəliməmmədli, Gədəbəy,

Qazax), kurort (Naftalan). Nəqliyyat magistralları, dəmir yolu və hava limanı məskunlaşma sisteminin əlaqələrini təmin edir.

Turizm potensialı istiqamətlər üzrə yüksəkdir: Tovuz, Goranboy, Ağstafa, Samux, Şəmkir rayonlarında su resursları, kənd təsərrüfatı və tarixi-mədəni ərazilər mövcuddur. Cənub rayonları (Daşkəsən, Gədəbəy, Göygöl) landşaft və meşə sahələri ilə ekstremal turizm üçün əlverişlidir. Naftalan kurortu müalicəvi mefti ilə tanınır. Göygöl Milli Parkı və çay hövzələri isə rekreasiya imkanları yaradır.

## 2.3. Bölgədə turizm infrastrukturunun müasir vəziyyəti

2023-ci ildə Gəncə-Qazax məskunlaşma sistemində turizm infrastrukturunun inkişaf vəziyyəti araşdırılmış, mehmanxana və iaşə obyektlərinin sayı və tutumu öyrənilmişdir. 2006-2023-cü illərdə mehmanxana və mehmanxana tipli obyektlərin

Sayı 17-dən 64-də çatmış, otaq sayı isə 2282-dən 2397-yə yüksəlmiş, lakin birdəfəlik tutum 5228 çarpayıdan 4903-ə düşmüşdür[1]. Gəncədə mehmanxana obyektlərinin sayı dörd dəfə artaraq ən yüksək səviyyəyə çatmış, Samux və Daşkəsəndə isə durğunluq davam edir. Naftalandakı Çinar sanatoriyası beynəlxalq standartlara uyğun yenidən fəaliyyətə başlamışdır.Bundan başqa burada Naftalan sağlamlıq mərkəzi, Park Naftalan Sanatorium və digər sanatorialar da fəaliyyət göstərir.

2023-cü ildə hər 1000 nəfərə düşən mehmanxana yerləri üzrə Gəncə-Qazax məskunlaşma sisteminin rayonları arasında ən yüksək yeri Gəncə və Naftalan şəhərləri (müvafiiq olaraq 3,9 və 3,5) və ən aşağı yerdə isə Gədəbəy rayonu (0,62) tutur. Samux və Dəliməmmədli isə mehmanxana və oxşar yerləşdirmə yerləri ilə heç təmin olunmayıb. İctimai iaşə obyektləri (kafe, restoran, bar) üzrə oturacaqların sayı 57342-dir. Ən çoxu Gəncə (20709), ardınca Şəmkir, Tovuz və Gədəbəy gəlir.

Turizm infrastrukturunun problemləri bunlardır: obyektlərin

---

[1] Джафарова, М.А. Современное состояние туристической инфраструктуры в Гянджа-Газахской системе расселения Азербайджана // – Казань: Известия КГАСУ. – 2025. №3(73). – с. 159-170.

kəmiyyət və keyfiyyətcə yetərsizliyi, periferiyada mehmanxana çatışmazlığı, beynəlxalq standartlara cavab verməyən xidmət, nəqliyyat və rabitə infrastrukturunun zəifliyi, su nəqliyyatı və sürətli dəmir yolu çatışmazlığı. Bu problemlər tirizm potensialının tam istifadə ediməsinə, turist axınının artmasına və regional iqtisadi inkişafına mənfi təsir göstərir. Həll yolları kimi rəqabətqabiliyyətli turist-rekreasiya klasterlərinin yaradılması və turizmin inkişafına kompleks, strateji yanaşma tövsiyə olunur.

## 2.4. Gəncə-Qazax məskunlaşma sistemində turizmin inkişafı üçün ekoloji risklər

Gəncə-Qazax məskunlaşma sistemində turizmin inkişafında ekoloji risklərin öyrənilməsi vacib mərhələlərdəndir. Turizmin inkişafında ekoloji riskləri 3 böyük qrupa ayırmaq olar: əhalinin həyat və sağlamlığı üçün risk (ekoloji təhlükənin sosial nəticələri), təbii sərvətlər üçün risk (iqtisadi nəticələr) və landşaftların struktur-funksional xüsusiyyətləri üçün risk (iqtisadi nəticələr).

Gəncə-Qazax məskunlaşma sistemində çay sularının ekoloji vəziyyətinə su ehtiyatlarının antropogen dəyişkənliyi təsir göstərir. Azərbaycanın çaylarının 2/3 hissəsi tranzit çaylardır və suların çirklənməsi əsasən qonşu ölkələrdən daxil olur. Hər il Kür çayına 468 min $m^3$ çirkab su axıdılır, çaylara 5 mln ton çirkləndirici maddə gətirilir. Regionda əsas sənaye – Gəncə şəhərində cəmlənib, burada atmosfer çirklənməsi üzrə əsas komponentlər kükürd qazı, toz, dəm qazı, azot oksidləri və flüor birləşmələridir.

Təbii biomüxtəliflik əsasən xüsusi qorunan ərazilərıdə - Milli Parkda (Göy-Göl), üç dövlət qoruğunda (Qarayazı, Eldar şamı və Kor çay)və dörd dövlət yasaqlığında (Şəmkir, Kor çay, Qarayazı və Qızılcan) qorunur. Qalan ərazilərdə otlaqlar və landşaft antropogen təsirlərdən zəifləyir.

Nəqliyyat vasitələrinin təsiri regionda çirklənmənin əsas mənbərərindən  dir. Bakı-Tbilisi dəmir yolunun 50 m və Bakı-Tbilisi şossesinin 50 m ətrafındakı ərazilərdə regiondan keçən bütün məsafə üzrə çirklənmə yüksəkdir. Böyük şəhərlərdə (Gəncə, Qazax, Tovuz) və rayonlararası yolların ətrafında çirklənmə orta-aşağıdır.

Beləliklə, Gəncə-Qazax məskunlaşma sistemində ümumilikdə ciddi ekoloji risk zonaları yoxdur, risklər əsasən Gəncə şəhəri və magistral yollar boyunca cəmlənir. Eyni zamanda biomüxtəliflik, çaylar, meşələr, mənzərəli landşaftlar və nəqliyyat əlçatanlığı turizmin inkişafı üçün geniş imkan yaradır.

# III FƏSİL. TURİZMİN PRİORİTET İNKİŞAF İSTİQAMƏTLƏRİNİN GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN İNKİŞAFINDA VACİB STRATEJİ ELEMENT KİMİ ROLU

## 3.1. Regionda turizmin inkişafının prioritet istiqamətləri

Gəncə-Qazax məskunlaşma sistemində turizm inkişafı üçün prioritet inkişaf istiqamətləri mədəni-tanışlıq, müalicə-sağlamlıq, tədbir və art-turizm, idman, ovçuluq-balıqçılıq və avtoturizmdir. Potensial sahələrə aqroturizm və ekoturizm daxildir.

Turizm və rekreasiya ehtiyatlarının təhlili bölgədə 6 ixtisaslaşmış zonanın formalaşmasına imkan verir:

*Mərkəzi* (Gəncə-Göygöl-Samux) – dini, ekoturizm, art-turizm, işgüzar, mədəni-gəzinti turizmi və etnoqrafik turizm;

*Şimal - Qərbi* ( Ağstafa, Tovuz, Qovlar,Qazax **)** – ekskursiya turları, kənd , aqroturizm, balıqçılıq, mədəni-gəzinti turizmi;

*Şimal* (Şəmkir) – ekskursiya turları, mədəni-gəzinti, aqroturizm, etnoqrafik turizm, balıqçılıq;

*Cənub-Qərb* (Gədəbəy) – ekoturizm, ekskursiya turları, ekstremal turizm;

*Cənub* (Daşkəsən) – ekskursiya turları, ekoturizm, ekstremal turizm;

*Şərq* (Goranboy-Naftalan-Dəliməmmədli) – ekskursiya turları, müalicəvi-sağlamlıq və kənd turizmi, aqroturizm.

Altı zonanın tematik ixtisaslaşması turizm məkanının polifunksional xarakterini gücləndirir. Onların koordinasiyası üçün vahid “Turizm məkan idarəetmə sistemi”nin yaradılması zəruridir. Bununla yanaşı şərabçılıq, mədəni irs, müalicəvi turizm və ekoturizm üzrə tematik klasterlərin təşkili sinerjini artırır və xidmət keyfiyyətini yüksəldir.

## 3.2. Gəncə şəhərinin Gəncə-Qazax regionunun turizm sahəsinin inkişafında rolu

Gəncə şəhəri Azərbaycanın ikinci böyük şəhəri və Gəncə-Qazax məskunlaşma sisteminin əsas mərkəzi kimi tarixi-memarlıq irsi, inkişaf etmiş infrastrukturu və əlverişli mövqeyi ilə turizmin aparıcı qovşağıdır[2]. Hacıkənd, Göygöl və Maralgöl kimi ətraf təbiət əraziləri marşrutların genişlənməsini təmin edir.

Sənaye irsindən qalma ekoloji problemlərə baxmayaraq, “yaşıl infrastrukturun” gücləndirilməsi, biomüxtəlifliyin qorunması və rekreasiya zonalarının inkişafı dayanıqlı turizmin əsasını təşkil etməlidir. Bakı-Gəncə sürətli qatarları və yolkənarı infrastrukturun yenilənməsi regionu əlçatanlığını artırır. Turizmin koordinasiyası üçün Gəncədə regional idarəetmə mərkəzinin yaradılması məqsədəuyğundur.

Şəhərsalma baxımından piyada yönümlü mərkəz, funksional zonaların əlaqələndirilməsi, Göygöl və Hacıkənd istiqamətinə “yaşıl dəhlizlərin” salınması Gəncənin turizm yükünü balanslaşdırar. Regionun digər şəhərləri – Qazax, Şəmkir, Tovuz, Göygöl – öz resurslarını Gəncə ilə sinxron təqdim etməklə vahid turizm məkanı formalaşdırar.

Rəqəmsal turizm platforması, GİS əsaslı marşrutlar və icma iştirakçılığı regionaldaxili inteqrasiyanı gücləndirir. Gəncə həm mərkəzləşdirilmiş turizm idarəetmə platforması, həm də şəhər-kənd əlaqələrini dəstəkləyən inkişaf qovşağı kimi çıxış edə bilər. İcma əsaslı turizm modelləri şəhərətrafi zonalar üçün əlavə iqtisadi imkanlar yaradır.

Beləliklə, Gəncənin turizm mərkəzi kimi rolu resurs koordinasiyası, idarəetmə potensialı və innovativ yanaşmaları ilə müəyyən olunur və şəhərin Cənubi Qafqazda aparıcı turizm qovşağına

---

[2] Джафарова, М.А. Роль города Гянджи как опорного центра в развитии Туризма в г. Гянджа-Газахском регионе Азербайджана // XCVI Международная научно-практическая конференция «Культурология, искуствовединие и филалогия: современные взгляды и научные исследования», – М: «Интернаука» – №5(87), – 2025, – s.115-117

çevrilməsi üçün real imkanlar yaradır.

## 3.3. Gəncə-Qazax məskunlaşma sisteminin regional turizm klasterinin formalaşdırılması

Tədqiq olunan ərazidə turizm-rekreasiya kompleksinin inkişaf üçün regional turizm-rekreasiya klasteri konsepsiyası hazırlanmış və bu çərçivədə 6 lokal klasterin formalaşması təklif edilmişdir. Onlardan üçü potensial regionlararası xarakter daşıyır: səyahət və tədbirlər turizmi klasteri (Gəncə şəhəri, Göygöl və Samux), kənd turizmi və aqroturizm klasteri (Ağstafa, Tovuz, Qovlar, Qazax), etnoqrafik və səyahət turizmi klasteri (Şəmkir), ekoturizm klasteri (Gədəbəy), ekstremal turizm klasteri (Daşkəsən), müalicə-sağlamlıq turizmi klasteri (Goranboy, Naftalan).

Turizmin inkişafı və məkan strukturunun müəyyənləşdirilməsi məqsədilə iki tip zona seçilir: dayaq mərkəzləri və avtonom turizm zonaları. Əsas turizm zonaları kimi aşağıdakılar seçilmişdir: 1) Mərkəzi turist zonası (Gəncə-Qazax-Samux); 2) Şimal-qərb sərhəd boyu turizm zonası (Ağstafa, Tovuz, Qovlar, Qazax); 3) Şimal turist zonası (Şəmkir); 4) Şərq turist zonası (Goranboy-Naftalan-Dəliməmmədli).

Regional klasterin tərkibinə daxil edilən avtonom zonalar isə "Cənub-Qərb avtonom" (Gədəbəy) və "Cənub avtonom" zonalardır (Daşkəsən). Bu zonalar əsasən yerli əhəmiyyət daşısa da, gələcəkdə kompleks və tematik marşrutlara daxil ediləcək.

## 3.4. Gəncə-Qazax məskunlaşma sisteminin turizm-rekreasiya kompleksinin inkişaf sferasında fəaliyyəti

Gəncə-Qazax məskunlaşma sistemində turizmin inkişafı üzrə regional strategiya çərçivəsində tədbirlər bir neçə əsas istiqaməti əhatə edir.

***Əmək predmeti sahəsində*** turizm və rekreasiya ehtiyatlarının vəziyyətinin monitorinqi; onların əlçatanlığının və istifadənin səmərəliliyinin artırılması; həmçinin nümayiş obyektlərinin təmirinin turizm infrastrukturunun inkişafı hesabına həyata keçirilməsi tələb

olunur.

***Turizm kadrları sahəsində*** əsas vəzifələr - turizm infrastrukturu müəssisələri üçün texniki mütəxəssislərin sayının artırılması və kadr hazırlığının beynəlxalq standartlara uyğun olaraq keyfiyyətinin yüksəldilməsi.

***Əmək vasitələri ilə təminat sahəsində*** turizm infrastrukturunun inkişafı iki istiqamətdə inkişafı nəzərdə tutulur: yeni obyektlərin tikintisi və mövcudların yenidən qurulması (xüsusilə yerləşdirmə obyektləri, yollar və yolkənarı infrastruktur), xidmət keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması.

***Nəqliyyat xidməti və transfer sahəsində*** müasir nəqliyyat parkının əldə edilməsi, ixtisaslaşdırılmış turist nəqliyyatının təmir bazasının inkişafı və yolkənarı xidmət infrastrukturunun inkişafı zəruri hesab edilir.

***Turizmin idarə edilməsi sahəsində*** xidmət keyfiyyətinin idarə edilməsi sisteminin formalaşdırılması, regional turizm klasterinin inkişafı və turizm-rekreasiya tipli xüsusi iqtisadi zonanın yaradılması əsas tələblərdəndir.

***Yeni bazarların mənimsənilməsi sahəsində*** yerli turizm məhsullarının xarici bazarlarda tanıtmaq üçün regional təşviqat sisteminin formalaşdırılması, biznesin dəstəklənməsi üzrə strukturların yaradılması, marketinq informasiya sisteminin təşkili və regional turizm məhsullarının aktiv brendləşdirilməsi vacibdir.

## Tədqiqatın əsas nəticələri

1. Tarixi şəhərlər həmişə turistlər tərəfindən ziyarət olunan ən əsas obyektlərdən biridirlər, çünki məhz onlarda ölkənin inkişafını, yaranmasını və zamanla dəyişməsini nümayiş etdirən obyektlər cəmləşmişdir. Gəncə-Qazax məskunlaşma sisteminə daxil olan şəhər və qəsəbələr qədim tarixə malikdir. Bunu ərazidə arxeoloji qazıntılar zamanı tapılan tarixi mədəniyyət abidələri təsdiq edir. Lakin məskunlaşma sisteminə daxil olan şəhər və qəsəbələrin planlaşdırma strukturu tarixi, təbii-iqlim, resurs potensialı və sosail şərtlərdən asılı olaraq fərqlənir.

2. Fikrimizcə, Azərbaycanın zəngin arxeoloji və memarlıq

abidələri, təbii-iqlim və sosial infrastrukturu olan Gəncə-Qazax məskunlaşma sistemi çox böyük turistik potensiala malikdir və müxtəlif forma və növ turzimin inkişafına zəmin yaradır. Turistik marşrutlara öz yaranma tarixi və zəngin arxeoloji və memarlıq abidələri olan şəhər və qəsəbələrdən başqa digər meyarlara cavab verən yaşayış məskənlərini də daxil etmək lazımdır. Bunların sırasına Göy-göl, Şəmkir, Qazax, Tovuz, Ağstafa rayonlarındakı keçmişdə alman koloniyaları olan 8 qəsəbəni (Helenendorf, Annenfeld, Georqsfeld, Alekseyevka, Grinfeld, Eygenfeld, Traubenfeld və Yelizavetinka) və həmçinin molokan kəndlərini (Slavyanka, Saratovka, Rus Borisləri və s.) də daxil etmək olar. Burada turistlər etnik azlıqlar təşkil edən keçmiş alman və molokan kəndlərinin memarlığı və yaşayış şəraiti ilə yaxından tanış ola bilər.

3. Gəncə-Qazax məskunlaşma sistemini təşkil edən ərazinin füsunkar landşaftı, flora və faunasi cəlbedici, ekoloji, sensetiv, mədəni turizmin inkişafı üçün əsas amillərdən biridir və enerji resursu rolunu oynayır. Fitomüalicə resursları təəssüflər olsun ki, meşələrin yalnız rekreasiya məqsədli istifadəsi ilə məhdudlaşır. Lakin, onu da xatırlamaq lazımdır ki,meşə massivi turistlərin daimi ziyarətindən ziyan görmüş olur və bu təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində belədir. Gəncə-Qazax məskunlaşma sistemi kifayət qədər təbii-rekreasiya resurslarına malikdir. Regionun komfort iqlimi, təmiz havası, panoramlı meşəli dağları, şəfaverici meneral suları, burada dünyamiqyaslı müxtəlif müalicəvi sağlamlıq müəssisələrinin, istirahət və rekreasiya məkanlarının yaradılması üçün gözəl şərait yaradır. Bölgədə dəniz səviyyəsindən 1556 m yüksəklikdə olan Göygöl və Hacıkənd istirahət mərkəzləri, və dünyaca məhşur Naftalan müalicə-saglamlıq mərkəzi vardır. Lakin, düşünürəm ki, bu gün məskunlaşma sistemində təbiət resurslarından turistləri cəlb eləmək və regionu Azərbaycanın çoxşaxəli turizm mərkəzinə çevirmək məqsədi üçün tam şəkildə istifadə edilmir.Bu gün bu ərazidə fiziki, bioloji və enerji resurslarından daha çox və kompleks şəkildə istifadə etmək vacibdir.

4. Gəncə-Qazax məskunlaşma sistemi turizmin inkişafı üçün şübhəsiz, kifayət qədər sosial-iqtisadi və demoqrafik potensiala malikdir. Burada, tədbir, sağlamlıq, aktiv və idman, kənd, etnik, ekskursiya və mədəni turizmin inkişaf perspektivləri aydın izlənilir.

Sosial turizmin regional səviyyədə canlanması və inkişafı Gəncə-Qazax məskunlaşma sistemi şəhərlərinin həm sosial, həm də iqtisadi problemlərini həll etməyə imkan verəcəkdir. Araşdırılan regionun rekreasiya-resurs potensialı sosial turizmin inkişafı üçün geninş imkanlar yaradır.Bu, turizmi mümkün qədər daha çox insanların istifadə etməsinə şərait yaradır. Gəncə-Qazax məskunlaşma sistemi paytaxtdan nisbətən uzaqda yerləşir və turizim baxımından burada sosial turizmin yaranmasında bir "canlanma" yaratmaq olar.

5. Gəncə-Qazax məskunlaşma sistemində turizmin əsas amillərinə aşağıdakılar daxildir: 1) ***təbii-coğrafi*** (rekreasiya və antropogen ehtiyatların keyfiyyət və kəmiyyət xüsusiyyətləri); 2) ***mədəni-tarixi*** (bunlar tarixi və memarlıq abidələri, maddi və mənəvi mədəniyyətin səviyyəsi, adət və ənənələrdir); 3) ***maddi-texniki*** (infrastrukturun inkişaf səviyyəsi: yerləşmə, iaşə, nəqliyyat və s.); 4) ***maliyyə-iqtisadi*** (əhalinin gəlir səviyyəsi, ölkədəki iqtisadi vəziyyət və s.); 5) ***sosial-demoqrafik*** (cinsi, yaşı, ailə vəziyyəti, təhsili, əhalinin həyat səviyyəsi, kənd və şəhər sakinlərinin nisbəti). Gəncə-Qazax məskunlaşma sistemində səmərəli turizm fəaliyyətinin təşkili üçün yuxarıda qeyd olunan amillərin hamısını obyektiv şəkildə nəzərə almaq lazımdır.

6. Azərbaycanla qonşu olan dövlətlərin əksəriyyəti öz turizm potensialı və turizm sənayesinin inkişafı baxımından Azərbaycanın imkanlarını üstələyir. Mövcud vəziyyəti nəzərə alsaq, qonşuluqda yerləşən iri turizm nəhəngləri, eləcə də ölkədəki turizm mərkəzlərinin əksəriyyətinin mövsümi olması səbəbindən Azərbaycanda turizm sənayesinin inkişafı məhdudlaşacaq. Bununla belə, qonşu Gürcüstan kimi, iqtisadiyyatın bu sektorunu inkişaf etdirmək olarsa, Azərbaycan da turizm sənayesində öz payına arxalana bilər. O, həmçinin Cənubi Qafqaz üzrə turların rahat halqası ola bilər.

7. Gəncə-Qazax məskunlaşma sisteminin coğrafi mövqeyi avtoturizmin inkişafına əlverişli şərait yaradır. Ərazi Bakı-Tbilisi dövlət avtomobil yolunun üzərində yerləşir və Cənubi Qafqaza səfər etmək istəyən qonaqlar üçün turları əlaqələndirə bilər. Təəssüf ki, Gəncə şəhərində əsas xarici nəqliyyat növlərinin (avtomobil, dəmir yolu və hava) mövcudluğu baxımından məskunlaşma sistemi daxilində nəqliyyat kommunikasiyaları kifayət qədər inkişaf etməmişdir.

8. Gəncə-Qazax məskunlaşma sisteminin dayaq karkası xətti-düyünlü planlaşdırma strukturuna malikdir. Şəhər əhalisinin dörddə üçü və regionun əsas istehsal potensialı urbanizasiyaya uğramış düyünlərdə (mərkəzlərdə) cəmləşmişdir. Onların iyerarxiyasını aşağıdakı kimi təqdim etmək olar: məskunlaşma sisteminin mərkəzi (Gəncə) və alt mərkəzləri (Qazax, Şəmkir); rayonun "ikinci şəhərləri" - 6 ədəd (Ağstafa, Daşkəsən, Gədəbəy, Tovuz, Göygöl, Qovlar - bütün inzibati ərazi vahidlərində mövcud deyil); dayaq mərkəzləri - 3 ədəd (Samux, Goranboy, Naftalan - digər kateqoriyalara daxil deyil). Əgər başqa rayonlarda əsas məskunlaşma mərkəzləri aqlomerasiyalar və iri şəhərlərdirsə, burada onların funksiyasını çox vaxt kiçik şəhərlər yerinə yetirirlər.

9. Gəncə-Qazax bölgəsinin 1/3 hissəsinin dağ silsiləsi ərazisində yerləşməsi ərazinin şəhərsalmasında mühüm rol oynayır. İlk növbədə, dağ silsiləsi ərazini şərti olaraq iki hissəyə bölərək relyefin əhəmiyyətli dinamikasını yaradır: cənub-qərb hissəsi dağlıqdır, buradakı hündürlüklər dəniz səviyyəsindən 2000 metr yüksəkliyə çatır; qalan hissəsi yumşaq maili, bəzən hətta çöldür. Tədqiqat sahəsinin mürəkkəb geoloji-geomorfoloji quruluşu Gəncə-Qazax məskunlaşma sistemi ərazisində aşağıdakı landşaft növlərini və bütün ərazi üzrə əhəmiyyətli müxtəlif iqlim şəraitini özündə birləşdirən “təmas rayonu” yaradır (cəmi 4 zona).

10. Müxtəlif landşaft şəraiti torpaqdan istifadə formasına uyğun olaraq rayon ərazisində 5 müxtəlif təsərrüfat ixtisası zonası formalaşdırmışdır: 1) Mədən zonası (Daşkəsən, Gəncə); 2) Sənaye zonası (Goranboy, Şəmkir); 3) Aqrar-sənaye zonası - yeyinti sənayesi müəssisələrinin yerləşdiyi, kənd təsərrüfatının inkişafı üçün əlverişli təbii şəraitə malik ərazi (Göy-Göl, Tovuz, Ağstafa); 4) Aqrar zona - əhalisi az olan və əsasən kənd təsərrüfatı ilə məşğul olan (Samux, Dəliməmmədli, Gədəbəy, Qazax); 5) Kurort - Şəhərdə müalicəvi neft - naftalan istehsal olunur.

11. Aparılmış təhlil əsasında Gəncə-Qazax məskunlaşma sisteminin turizm infrastrukturunun vəziyyətinin və inkişafının bir-biri ilə əlaqəli və bir-birindən asılı olan bir sıra problemlərini qeyd etmək olar: 1) turizm infrastrukturunun qeyri-kafi inkişaf səviyyəsi (ictimai iaşə obyektlərinin, turistlərin yerləşdirilməsi obyektlərinin, yolkənarı

infrastruktur obyektlərinin olmaması, tələb olunan kateqoriyalı turizm infrastrukturu elementlərinin olmaması); 2) xidmət səviyyəsinə görə turizm infrastrukturunun beynəlxalq standartlara uyğun gəlməməsi; 3) su nəqliyyatı infrastrukturunun olmaması, turizm məhsulunun maya dəyərində nəqliyyat xərclərinin yüksək payı. Turizm infrastrukturunun inkişafı problemləri Gəncə-Qazax məskunlaşma sisteminin mövcud unikal turizm və rekreasiya potensialının üzə çıxarılmasını və istifadəsini məhdudlaşdırır, turizmin fəaliyyətinə və bütövlükdə məskunlaşma sisteminin iqtisadiyyatına ləngləşdirici təsir göstərir.

12. Gəncə şəhəri bir sıra səbəblərə görə regionda turizm sənayesinin inkişafında əsas rol oynayır: 1) çoxlu sayda memarlıq və tarixi abidələrin olması; 2) məskunlaşma sisteminin inzibati mərkəzidir və inkişaf etmiş şəhər və mühəndis infrastrukturuna (nəqliyyat, xidmət, elm, təhsil və informasiya) malikdir; 3) məskunlaşma sisteminin digər yaşayış məntəqələrinə nisbətən coğrafi cəhətdən mərkəzdə yerləşməsi bölgədə əlaqəli turizm marşrutlarının yaradılmasına kömək edəcəkdir.

13. Məskunlaşma sistemində turizmin inkişafı proqramında ekoloji cəhətdən sağlam mühit yaratmaqla investisiya və miqrasiya cəlbediciliyinin regional mərkəz olan Gəncədən bölgənin digər şəhərlərinə keçirilməsi əsas vəzifələrdən ibarət olmalıdır. Buna, əlverişli, infrastrukturla təmin olunmuş, yaşayış, iş və istirahət üçün ekoloji cəhətdən sağlam mühitin yaradılması yolu ilə nail olmaq olar. Gəncə-Qazax məskunlaşma sisteminin kiçik aqrosənaye şəhərləri kənd əhalisinin inkişafı üçün fokus nöqtələri rolunu oynamalıdır. Ümumiyyətlə, Gəncə-Qazax məskunlaşma sisteminin yaşayış məntəqələrinin iqtisadiyyatının şaxələndirilməsi və qarşılıqlı uzlaşması məsləsi burada turizmin inkişafını maksimum dərəcədə artıracaqdır. Gəncə regional mərkəz olmaqla həm də birgə məsələlərin idarəetmə və həlli mərkəzi rolunu oynamalıdır (idarəetmə Gəncə şəhərindən həyata keçirilməlidir).

14. Tədqiqat nəticəsində Gəncə-Qazax məskunlaşma sistemində turizmin inkişafı üçün prioritet istiqamətlər müəyyən edilib. Gəncə-Qazax məskunlaşma sistemində turizmin inkişafı üçün aşağıdakı turizm növləri prioritet hesab edilməlidir: mədəni-maarif və məktəb, müalicə-istirahət, tədbir və incəsənət turizmi, idman, ovçuluq və balıqçılıq, avtoturizm. Eyni zamanda, turizmin potensial növlərinə

aşağıdakılar daxil edilməlidir: kənd (aqroturizm) və ekoloji (ekoturizm).

15. Məskunlaşma sisteminin əsas turizm və rekreasiya ehtiyatlarının yerləşməsinin təhlili müvafiq ixtisasa malik 6 turizm və rekreasiya zonasını müəyyən etməyə imkan verir: Mərkəzi (Gəncə-Göygöl-Samux) – maarifləndirici turizm, dini turizm, ekoturizm, mədəniyyət turizmi, biznes turizmi, tədbir turizmi, etnoqrafik turizm; Şimal-Qərb (Ağstafa, Tovuz, Qovlar, Qazax) - gəzinti turları, kənd turizmi, aqroturizm, balıqçılıq, maarifləndirici turizmi; Şimal (Şəmkir) - görməli yerlərə ekskursiyalar, maarifləndirici turizmi, etnoqrafik turizm, aqroturizm, balıqçılıq; Cənub-Qərb (Gədəbəy) - ekoturizm, ekskursiya turları, ekstremal turizm; Cənub (Daşkəsən) - ekskursiya turları, ekoturizm, ekstremal turizm; Şərq (Goranboy-Naftalan-Dəliməmmədli) - ekskursiya turları, sağlamlıq turizmi, aqroturizm.

16. Gəncə-Qazax məskunlaşma sisteminin turizm-rekreasiya kompleksinin inkişafı istiqamətlərinin işlənib hazırlanması çərçivəsində regionun inkişaf strategiyası üçün regional turizm-rekreasiya klasterinin inkişafı konsepsiyası təklif edilmişdir. Gəncə-Qazax məskunlaşma sistemi ərazisində turizmin inkişafı və bölgədə onun məkan fərqinə görə iki növ zona, o cümlədən turizm fəaliyyəti mərkəzləri fərqləndirilir: dayaq (əsas) və avtonom (ikinci dərəcəli) turizm zonaları. Dayaq turizm zonaları kimi aşağıdakılar seçilir: 1. "Mərkəzi" turizm zonası (Gəncə-Qazax məskunlaşma sisteminin mərkəzi hissəsində, Gəncə-Göygöl-Samuxda yerləşir); 2. "Şimal-Qərb sərhəddi" turizm zonası (Ağstafa, Tovuz, Qovlar, Qazax rayonlarında yerləşir); 3. "Şimal" turizm zonası (Şəmkir rayonu ərazisində yerləşir); 17. "Şərq" turizm zonası (Goranboy-Naftalan-Dəliməmmədli). Avtonom turizm zonalarına aşağıdakılar daxildir: 1. "Cənub-Qərb Avtonom" turizm zonası (Gədəbəy rayonunda yerləşir). 2. "Cənub Avtonom" turizm zonası (Daşkəsən rayonu).

Tədqiqatda Gəncə-Qazax məskunlaşma sisteminin turizm-rekreasiya kompleksinin inkişafı sahəsində tədbirlər təklif edilir. Gəncə-Qazax məskunlaşma sisteminin turizm klasterinin inkişaf strategiyasının əsas strateji məqsədi turizm sektorunda rəqabətqabiliyyətli biznesin formalaşdırılması və Gəncə-Qazax məskunlaşma sisteminin rekreasiya zonası kimi imicinin

yüksəldilməsidir. Turizmin inkişafı üzrə regional strategiya çərçivəsində təklif olunan fəaliyyətlər kompleksinə aşağıdakılar daxildir: əmək predmeti, turizm kadrları, əmək vasitələri ilə təminat, nəqliyyat xidməti və turistlərin transferi, turizmin idarə edilməsinin səmərəliliyinin artırılması, yeni bazarların genişləndirilməsi və mənimsənilməsi sahələrində.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı məqalələrdə əks olunaraq nəşr edilmişdir:**


1. Böyük şəhərlərdə urbanizasiya olunmuş yaşayış mühitinin əhalinin yaşayışına və sağlamlığına göstərdiyi təsir / M.Ə. Cəfərova, X.Ə.Cəfərov // – Bakı: Urbanizm, – 2011. №17, – s. 24-32.
2. Gəncə şəhərinin inkişafına regional amillərin təsiri // – Bakı: Memarlıq, şəhərsalma tarixi və bərpa toplusu, – 2011. №1(2), – s. 189-194.
3. Gəncə-Qazax regional məskunlaşma sisteminin inkişafı // – Bakı: Memarlıq, şəhərsalma tarixi və bərpa toplusu, – 2012. №1(2), – s. 156-162.
4. Gəncə şəhərinin müasir şəhərsalma problemləri // – Bakı: Urbanizm, – 2013. №18, – s. 39-41.
5. Gəncə-Azərbaycanın, xalqımızın qədim və zəngin tarixini özündə əks etdirən bir diyar, gözəl şəhərdir // H.Əliyevin 100 illiyinə həsr olunmuş elmi konfrans, – Bakı: oktyabr, – 2013, – s. 80-84.
6. Gəncənin müasir ekoloji durumu və onun tənzimlənməsi imkanları // – Bakı: Ekologiya və su təsərrüfatı elmi texniki və istehsalat jurnalı, – 2013. №3, – s. 33-36.
7. Məskunlaşma sisteminin təsir dairəsinin funksional strukturunda Gəncə şəhərinin yeri / M.Ə. Cəfərova, X.Ə.Cəfərov // – Bakı: Urbanizm, – 2013. №18, – s.42-44.
8. Gəncə-Qazax iqtisadi rayonunun məskunlaşma sistemində Gəncə şəhəriin rolu // – Bakı: Memar, – 2017. №1(2), – s. 176-181.
9. Gəncə-Qazax iqtisadi rayonunun urbanizasiya karkasının struktur analizi // Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın materialları, – Bakı: 18-22 sentyabr, – 2021, – s. 362-364.
10. Gəncə-Qazax iqtisadi rayonunun təbii-rekreasiya resursları və onların turizmin inkişafı üçün dəyəri // "Müasir şəhərsalmada novatorluq və ənənələr" mövzusunda elmi-praktiki konfransın materialları, – Bakı: 06 may, – 2022, – s. 58-65.

11. Gəncə -Qazax məskunlaşma sisteminin urbanizasiya karkası // “İnşaatın müasir problemləri” Beynəlxalq elmi konfransının materialları, – Bakı: 24 noyabr, – 2023, – s. 263-267.
12. Gəncə-Qazax məskunlaşma sistemini əhatə edən ərazi, burada, turizm sənayesini inkişaf etdirmək üçün güclü, iqtisadi potensiala malikdir // “Azərbaycan Respublikasının müasir idman qurğularının memarlıq və inşaat problemləri” mövzusunda Elmi-praktiki konfransın materialları, – Bakı: 21 dekabr, – 2023, – s. 34-37.
13. Gəncə-Qazax məskunlaşma sistemində yaşayış yerlərinin tarixi inkişafı // Şərq ölkələri Beynəlxalq memalıq akademiyasının resublika elmi-praktiki konfransın materialları, – Bakı: – 2024. Cild 24, №2 – s. 104-112.
14. Prioriry directions of tourism and recreation development in Ganja- Gazakh sittling sistem // İnternational Conference “Energy and Environmental Technologies in Egineering and Architecture” (İCETEA 2024). – Baku: 19-21 December, – 2024. – p. 288-293
15. Роль города Гянджи как опорного центра в развитии Туризма в г. Гянджа-Газахском регионе Азербайджана // XCVI Международная научно-практическая конференция «Культурология, искуствовединие и филалогия: современные взгляды и научные исследования», – М: «Интернаука» – №5(87), – 2025, – с. 115-117.
16. Роль города Гянджи в развитии туристического сектора в Гянджа-Газахской системе расселения // – Екатуринбург: Академический вестник Урал НИИ проект РААСН, – 2025. №1(68), – с. 23-27
17. Современное состояние туристической инфраструктуры в Гянджа-Газахской системе расселения Азербайджана // – Казань: Извести КГАСУ. – 2025. №3(73). – с. 159-170.

# I FƏSİL. GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN İNKİŞAFINDA ÜMUMİ ŞƏHƏRSALMA ŞƏRTLƏRİ

## 1.1.GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNDƏ YAŞAYIŞ YERLƏRİNİN TARİXİ İNKİŞAFI



Gəncə-Qazax məskunlaşma sistemi **13** şəhər, **46** qəsəbə, **279** kənd inzibati ərazi vahidinin tərkibində olan 521 kəndi əhatə edir.
Sahəsi - **12,48** min km$^2$
Ölkə sahəsində payı - **14,4%**
Yaşayış məntəqələrinin əhalisinin ölkə əhalisinin sayında çəkisini – **12,9%**
Bura **Gəncə-Daşkəsən** və **Tovuz-Qazax** iqtisadi rayonları daxildir

**Gəncə-Qazax məskunlaşma sistemi**
Əhalisi - 1294,1 min nəfər
Əhalinin sıxlığı – **105** nəfər/ km$^2$

**Gəncə-Daşkəsən iqtisadi rayonu**
Ərazisi – 5,45 min km$^2$
Əhalisi – 609,6 min nəfər
Əhalinin sıxlığı – **112** nəfər/ km$^2$

**Qazax-Tovuz iqtisadi rayonu**
Ərazisi – 7,03 min km$^2$
Əhalisi – 684,5 min nəfər
Əhalinin sıxlığı – **97** nəfər/ km$^2$

**Gəncə-Qazax məskunlaşma sisteminin Azərbaycan ərazisində mövqesi**




**Gəncə şəhərinin Gəncə-Qazax məskunlaşma sistemində mövqesi**

01

# I FƏSİL. GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN İNKİŞAFINDA ÜMUMİ ŞƏHƏRSALMA ŞƏRTLƏRİ

## 1.3.GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN SOSİAL-İQTİSADİ VƏ DEMOQRAFİK ŞƏRTLƏRİ




12

# II FƏSİL. GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNDƏ TURİZM POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.2.GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN URBANİZASİYA KARKASININ STRUKTUR ANALİZİ




GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNDƏ ƏSAS ŞƏHƏRFORMALAŞDIRAN OBYEKTLƏRİNİN YERLƏŞMƏ SXEMİ

### Eksplikasiya

1. Şəmkir Dövlət təbiət yasaqlığı
2. "Eldar Şamı" Dövlət təbiət qoruğu
3. "Qızılça" Dövlət təbiət qoruğu
4. Qovdu meşə massivi
5. Gödəkdərə meşə massivi
6. Qəmiş meşə massivi
7. Şamlıq meşə massivi
8. Gəncə hava limanı
9. Naftalan hava limanı
10. Dəmir yol vağzalı
11. Gəncə sənaye mərkəzi
12. Alüminium zavodu
13. Əlvan metalların emalı zavodu
14. Avtomobil təmiri zavodu
15. Avtomobil zavodu
16. Maşınqayırma zavodu
17. Cihazqayırma zavodu
18. Rabitə sənayesi
19. Dəmir beton zavodu
20. Sənaye tikinti müəssisəsi
21. Gəc zavodu
22. Kərpic zavodu
23. Betonit gil zavodu
24. Beton zavodu
25. Melxior zavodu
26. Santexniki avadanlıqlar zavodu
27. Gəncə mebel ASC
28. Çini qablar zavodu
29. Toxuculuq kombinatı
30 Tikiş fabriki
31. Xalça kombinatı
32. Aviatəmir 307 saylı h/h
33. Pambıq əyirici ASC
34. Un məmulatları kombinatı
35. Yağ-piy kombinatı
36. Ət-süd kombinatı
37. Gəncə-şərab-1 ASC
38. Gəncə-şərab-2 ASC
39. Gəncə pivə
40. Polad və çüqün istehsalı zavodu
41. Bitki yağları istehsalı
42. Gön-dəri zavodu
43. Gübrə zavodu
44. Gips zavodu
45. Aqroservis və aqrolizinq
46. Pambıq təmizləmə
47. Taxıl qəbulu məntəqəsi
48. "Daşkəsən Filizsaflaşdırma" ASC
49. "Zəylik-Alunit Mədən" idarəsi
50. Çörək zavodu
51. AİMK şirkəti (Gədəbəy qızıl-mis istehsalı müəssisəsi)
52. Kartof emalı və tədarükü zavodu
53. "Goranboy Sənaye İnşaat" ASC
54. "Gilan & Knauf" MMC
55. "Galib Group" MMC
56. "Türk Yapı Sənaye" MMC
57. Meyvə emalı müəssisəsi
58. Şərab zavodu
59. Mexaniki zavod
60. Süd zavodu
61. Telekommunikasiya qovşağı
62. Daş doğrama sexi
63. Neft emalı zavodu
64. Soyuducu anbar kompleksi
65. Tingçilik kompleksi
66."Aqro Dairy" MMC
67. "Boz dağ" heyvandarlıq kompleksi
68. "Ulduz 2011" MMC
69. "Qaradağ Region MKT" MMC
70. "Region Aqro" MMC
71. Karxana
72. "Azərxalça" ASC
73. "Şəmkir Aqroparkı"nın Logistika Mərkəzi
74. Su elektrik stansiyası
75. Şəmkir quşçuluq fabriki






15

# II FƏSİL. GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNDƏ TURİZM POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.2.GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN URBANİZASİYA KARKASININ STRUKTUR ANALİZİ



Gəncə-Daşkəsən məskunlaşma sistemində dayaq mərkəzlərinin analizi

Gəncə-Daşkəsən məskunlaşma sisteminin əsas şəhərlərinə nəqliyyatla çatma zonaları müəyyən edilmişdir. Nəqliyyatla çatma radiuslarının hesablanması üçün Gəncə məskunlaşma sisteminin şəhərləri arasında olan məsafələr və əsas avtomobil yolları ilə minik avtomobili ilə gediş-gəliş vaxtı müyyən edilmişdir. Əsas mərkəzlərdən, eləcə də, kiçik şəhərlərdən 1,0 saat və 0,5 saatlıq nəqliyyatın əlverişliliyi müəyyən edildi. 0,5 saatlıq nəqliyyat əlverişliliyi ən intensiv əlaqələri olan əraziləri səciyyələndirir və 1,0 saatlıq nəqliyyat əlverişliliyi gündəlik işçi gediş-gəlişinə sərf olunan vaxtın göstəricisidir





Avtomobil yolları boyunca səyahət vaxtının tədqiqatı zamanı aparılan hesablamalar nəticəsində sərnişin avtomobilləri ilə, məxsusən Gəncə-Samux-Göygöl-Dəliməmmədli-Goranboy-Şəmkir-Daşkəsən- Naftalan dayaq mərkəzləri arasında nəqliyyat əlverişliyinin 1 saatdan az olduğu məlum oldu, lakin Gəncə-Gədəbəy arasında nəqliyyat əlverişliyi 1 saatlıq rəqəmi üstələyir ki, bu da, müntəzəm işçi gediş-gəliş hərəkətlərini mənasız edir. 1,0 saatlıq və 0,5 saatlıq nəqliyyat əlverişliyinin hüdudlarında məkan əlaqələrinin qiymətləndirilməsi Gəncə məskunlaşma sisteminin sərhədlərini müəyyən etməyə imkan verir. Burada yalnız Gədəbəy şəhəri 1,0 saatlıq nəqliyyat əlverişliyi zonasına daxil deyil, lakin bu şəhərə ən yaxın Gəncə məskunlaşma sistemi olduğundan, biz onu da həmin məskunlaşma sisteminə daxil etmişik.

Gəncə-Daşkəsən məskunlaşma sistemində nəqliyyat əlverişliyi sxemi

18

# II FƏSİL. GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNDƏ TURİZM POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.2.GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN URBANİZASİYA KARKASININ STRUKTUR ANALİZİ

Tadqiqatda P.M.Polyan, N.İ.Naymark və İ.N.Zaslavski tərəfindən təklif olunmuş şəhər aqlomerasiyalarının unifikasiya edilmiş delimitasiya metodikasının əsasında Gəncə məskunlaşma ərazisində **beş lokal məskunlaşma sistemi müəyyən edilmişdir.**

Bunun üçün metodikaya uyğun olaraq aşağıdakılar yerinə yetirilmişdir:
1. Lokal məskunlaşma sistemlərinin nüvələri müəyyən edilmişdir. Bunlar - Gəncə, Şəmkir və Göygöl şəhərləridir.
2. Aqlomerasiya əlaqələrinin potensial təsir zonaları təyin edilmişdir:
dayaq nüvələri və kiçik şəhərlərdən mərkəzi şəhərə 1,0-saat (60 dəqiqə) (brutto) ərzində nəqliyyatla çatma izoxronu kiçik şəhərlərin 30 dəqiqə izoxronu ilə uyğunlaşdırılmışdır.
3. İnkişaf əmsalı hesablanmışdır.K mkş =Px(Mxu+Nxn), burada P-aqlomerasiyadakı şəhər əhalisinin sayı; M и N - şəhər və şəhər tipli qəsəbələrin sayı; m и n - onların aqlomerasiyadakı şəhər əhalisində payıdır.
Aqlomerasiyanın formalaşmış sayılması üçün, K mkş 1,0-dən çox olmalıdır.

**Gəncə** lokal məskunlaşma sistemi Gəncə şəhərinin yaxın qurşağında yerləşir - üstünlük təşkil edən Gəncə şəhəri, və həmçinin ona yaxın yerləşən Göygöl və Samux şəhərləri, 19 şəhər tipli qəsəbənin və 86 kəndin əsasında formalaşmışdır.

**Goranboy-Naftalan** lokal məskunlaşma sistemi, əsasən nüvənin təsir zonasında yerləşir- Goranboy və naftalan, və həmçinin onların yaxınlığındakı Dəliməmmədli şəhəri və bir sıra şəhər tipli qəsəbələrin (6) və kəndlərin (81) əsasında formalaşmaqdadır.

**Şəmkir** lokal məskunlaşma sistemi orta zonada yerləşir - Şəmkir şəhəri, və həmçinin onun yaxınlığındakı 7 şəhər tipli qəsəbənin və 58 kəndin əsasında formalaşmaqdadır.

**Gədəbəy** lokal məskunlaşma sistemi, orta zonada yerləşir - Gədəbəy şəhəri, və həmçinin onun ətrafındakı 108 kəndin əsasında formalaşmaqdadır.

**Daşkəsən** lokal məskunlaşma sistemi, orta zonada yerləşir - Daşkəsən şəhəri, və həmçinin onun ətrafındakı 43kəndin əsasında formalaşmaqdadır.

### GƏNCƏ-DAŞKƏSƏN MƏSKUNLAŞMA SİSTEMİ ƏRAZİSİNDƏ LOKAL SİSTEMLƏR




| [illegible] | [illegible] | [illegible] | [illegible] | STQ sayı | [illegible] | İnkişaf əmsalı | [illegible] |
|---|---|---|---|---|---|---|---|
| GƏNCƏ | [illegible] | 3 | [illegible] | 19 | 17.9 | 0.54 | Potensial |
| GORANBOY-NAFTALAN | [illegible] | 3 | [illegible] | 6 | 8.2 | [illegible] | Potensial |
| ŞƏMKİR | 74.7 | 1 | 42.9 | 7 | 31.8 | 0.54 | Potensial |
| GƏDƏBƏY | 11.7 | 1 | 11.7 | [illegible] | [illegible] | [illegible] | Potensial |
| DAŞKƏSƏN | 10.2 | 1 | 11.1 | 5 | 4.1 | 0.0804 | Potensial |

**Gəncə - Qazax məskunlaşma sistemi üzrə 2006-2021-cu illərdə ümumi istifadədə olan avtomobil yollarının və körpülərin tikintisi barədə məlumat**

| Sıra No-si | Tədbirin adı | Yolların ümumi uzunluğu | 2006 | 2007 | 2008 | 2009 | 2021 | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Dövlətlərarası avtomobil yollarının tikintisi və təmiri (km) | 203,7 | 337,5 | 157,5 | 164,4 | 115,9 | 98,1 | 873,4 |
| 2 | Respublika əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri (km) | 300,0 | 139,2 | 37,2 | 21,2 | 17,9 | 11 | 226,5 |
| 3 | Yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri (km) | 4590,7 | 198,3 | 120,3 | 143,2 | 98 | 87,1 | 646,9 |
| 4 | Yeni körpü və tunellərin tikintisi | | 12 | 3 | 3 | - | 9 | 27 |

**Gəncə-Daşkəsən məskunlaşma sistemində nəqliyyat əlverişliyi**

19

# III FƏSİL. TURİZMİN PRİORİTET İNKİŞAF İSTİQAMƏTLƏRİNİN GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN İNKİŞAFINDA VACİB STRATEJİ ELEMNT KİMİ ROLU

## 3.1.REGİONDA TURİZMİN İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ




1. **Mərkəzi zona** (Gəncə, Göygöl, Samux) - dini, ekoturizm, art-tirizm, işgüzar, tədbirlər, tarixi-mədəni, etnoqrafik turizm
2. **Şimal-Qərbi** (Ağstafa, Tovuz, Qovlar, Qazax) - ekskursiya turları, kənd turizmi, aqroturizm, balıqçılıq, arxeoloji turizm
3. **Şimal** (Şəmkir) - ekskursiya turları, tarixi-mədəni, aqroturizm, etnoqrafik, balıqçılıq
4. **Cənub-Qərb** (Gədəbəy) - ekoturizm, ekskursiya turları, ekstrimal, arxeoloji turizm
5. **Cənub** (Daşkəsən) - ekskursiya turları, ekoturizm, ekstrimal turizm
6. **Şərq** (Goranboy, Naftalan, Dəlimməmmədli) - ekskursiya turları, müalicəvi-sağlamlıq, kənd turizmi, aqroturizm







Gəncə-Qazax məskunlaşma sistemində turizm və rekreasiya rayonları və istiqamətləri

25

# III FƏSİL. TURİZMİN PRİORİTET İNKİŞAF İSTİQAMƏTLƏRİNİN GƏNCƏ-QAZAX MƏSKUNLAŞMA SİSTEMİNİN İNKİŞAFINDA VACİB STRATEJİ ELEMNT KİMİ ROLU

## 3.3.GƏNCƏ-QAZAX ŞMƏSKUNLAŞMA SİSTEMİNİN TURİZM KLASTERİNİN FORMALAŞMASI

1. **Səyahət və tədbirlər turizmi klasteri** (Gəncə şəhəri, Göygöl və Samux rayonları)
2. **Kənd turizmi və aqroturizm klasteri** (Ağstafa, Tovuz, Qovlar, Qazax rayonları)
3. **Etnoqrafik və səyahət turizmi klasteri** (Şəmkir rayonu)
4. **Ekoturizm klasteri** (Gədəbəy rayonu)
5. **Ekstrimal turizm klasteri** (Daşkəsən rayonu)
6. **Müalicə-sağlamlıq turizmi klasteri** (Goranboy rayonu, Naftalan şəhəri, Dəlimәmmədli şəhəri)




Regional turizm və rekreasiya klasterləri

**Gəncə-Qazax məskunlaşma sistemində turizm zonaları**

Əsas turizm zonaları

1. **Mərkəzi turizm zonası** (Gəncə şəhəri, Göygöl və Samux rayonları)
2. **Şimal-qərb sərhəd boyu turizm zonası** (Ağstafa, Tovuz, Qovlar, Qazax rayonları)
3. **Şimal turizm zonası** (Şəmkir rayonu)
4. **Şərq turizm zonası** (Goranboy rayonu, Naftalan şəhəri, Dəliməmmədli şəhəri)

Avtonom turizm zonaları

5. **Cənub-Qərb avtonom turizm zonası** (Gədəbəy rayonu)
6. **Cənub avtonom turizm zonası** (Daşkəsən rayonu)

- Mərkəzi turizm infrastrukturu obyektlərinin yeri
- Şərab yolu
- Almanların Azərbaycanda tarixi irsi marşrutu
- Milli kulinariya marşrutu
- Babalarımızın tarixi zəfər və şəhadət yolu marşrutu
- Balıqçılıq marşrutu




Gəncə-Qazax məskunlaşma sistemində turizm marşrutları

27

Dissertasiya müdafiəsi "12" iyun 2026-cı il tarixində saat 11⁰⁰-da Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.29 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1073, Bakı şəhəri, A.Sultanova küç. 11.

Dissertasiya ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyasını Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "01" may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanmışdır: 29.04.2026

Kağızın formatı: A5

Həcm: 34780

Tiraj: 100